# "FƏALLIQ" VƏ "İDRAK FƏALLIĞI" ANLAYIŞLARI: MAHİYYƏTİ, OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

**Rəbiyə Qəniyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: rabiye.n@mail.ru

**Rəyçilər:** *ped.ü.elmlər dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəlsəfə dok.,*dos. R.A. Salahov

***Açar sözlər:*** *fəallıq, idrak, idrak fəallığı, şagirdlərin idrak fəallığı, idrak fəallığının inkişaf etdirilməsi*

***Ключевые слова:*** *активность, познание, познавательная активность, познавательная активность учащихся, развитие познавательной активности*

***Keywords:*** *activity, cognition, cognitive activity, cognitive activity of students, development of cognitive activity*

Ümumtəhsil məktəblərində ingilis dilinin təliminin mühüm vəzifələrindən biri səriştəli və mədəniyyətlərarası ünsiyyətdə iştirak etməyə hazır olan məktəblilərin, o cümlədən X-XI sinif şagirdlərinin şəxsiyyətinin, həmçinin yaradıcı qabiliyyətinin inkişafına nail olunmasıdır. Motivasiyanı formalaşdırmaq üçün, hər şeydən əvvəl təlimə daxili tələbatın təzahürü üçün şəraitin yaradılması, bunun şagirdlər tərəfindən dərk olunması və motivasiya sahəsinin daha da inkişaf etdirilməsidir.

Yeni təfəkkür və təxəyyül şəraitində təlim prosesinin subyekti olmaq etibarilə yaradıcı qabiliyyətlərini inkişaf etdirməklə, idrak fəallıqlarını artırmaqla şagirdlərin dünyagörüşü və ümumelmi hazırlıqlarını keyfiyyətcə təkmilləşdirmək mühüm tələb kimi qarşıda dayanır. Bu tələb eyni zamanda Ölkə Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gəlir. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında deyilir: "Sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir" (1).

Məlum olduğu kimi, Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında ölkəmizdə keyfiyyət nəticələrinə və əhatəliliyinə görə dünya ölkələri arasında layiqli mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin formalaşdırılması məqsədilə beş strateji istiqamət üzrə genişmiqyaslı tədbirlər nəzərdə tutulmuşdur.

İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsinə doğru yönəlmişdir. "Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir" (1).

Nəzərdən keçirdiyimiz problem məhz bu ikinci istiqamətlə sıx surətdə bağlıdır.

Vaxtilə belə fikir mövcud idi ki, bu və ya digər fənnin mövzuları yaxşı mənimsəmək yüksək səviyyəyə deməkdir. Fəqət təcrübədən görünür ki, bu əsas göstərici deyildir. Şagird həyati bacarıqlara yiyələnməlidir. Başqa sözlə, öyrəndiklərini tətbiq etməyə qabil olmalıdır.

Bu sahədə başlıca məsələ təhsilalanların müstəqilliyinin və idrak fəallığının inkişafına qayğı göstərilməsidir.





Lakin tədqiqatlar göstərir ki, digər fənlərdə olduğu kimi, ingilis dili dərslərində də şagirdlərin idrak fəallığının inkişaf etdirilməsinə az fikir verilir. Bu isə, ümumtəhsil məktəblərində şagirdlərin fəallığının, xüsusən idrak fəallığının yüksəldilməsini mühüm tələb kimi meydana gətirir.

Məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin idrak fəallığına nail olmaq təhsil müəssisəsində təlim prosesinin optimallaşdırılmasına və təkmilləşdirilməsinə əlverişli imkan və şərait yaradır. İdrak fəallığının inkişaf etdirilməsi problemi pedaqoji elmdə yeni məsələ deyildir. L. Mansurova – ümumtəhsil məktəblərində tarixin tədrisində şagirdlərin, L. Məmmədli - ali məktəblərdə Azərbaycan tarixi, pedaqogika və psixologiya fənlərinin tədrisi prosesində tələbələrin idrak fəallığının formalaşdırılmasını öz tədqiqatlarının obyekti kimi götürmüş, pedaqogika üzrə fəlsəfə doktoru proqramı üzrə dissertasiya müdafiə etmişlər.

Xarici ölkələrdə bu problemə Y.K. Babanski P.N. Qruzdayeva, Y.N. Kulyutkina, Q.Q. Lemberq, A.M. Matyuşkin, N.A. Mençinskaya, R.A. Nizamov, T.İ. Şamova və b. müraciət etmişlər. M.N. Skatkinin qənaətincə, idrak fəallığı problemi "fəlsəfi, məntiqi və fizioloji aspektlərdən" də öyrənməlidir.

İlk növbədə "fəallıq" və "idrak fəallığı" anlayışlarına aydınlıq gətirilməlidir. "İdrak fəallığı" ifadəsinin bazasını, özülünü "fəallıq" anlayışı təşkil edir. Başqa sözlə, həmin sözdən nəşət etmişdir. Bu da təbiidir. Fəallıq olmalıdır ki, idrak fəallığı meydana gəlsin. Elə isə "fəallıq" nədir, "idrak fəallığı" nə?

Fəaliyyət kateqoriyası müasi psixologiyanın anlayışlar sistemində xüsusi yerə və mövqeyə malikdir. Fəaliyyət şəxsiyyətin fəallığının səciyyəvi formasıdır. "Fəaliyyət" anlayışı "fəallıq" anlayışından yaransa da, eyni məzmun kəsb etmir. Fərq burasındadır ki, fəaliyyət, əsasən sosial istiqamətlidir, fəallıq isə, təbii tələbatların ödənilməsini nəzərdə tutur.

Aktiv fəaliyyət zamanı şəxsiyyət obyektiv aləmin hadisələri və təzahürləri, əşya və predmetləri, eyni zamanda prosesləri haqqında zəruri təsəvvürlərə, hiss və duyğulara, qavrayışlara malik olurlar. Yalnız fəal fəaliyyət öyrənilən hadisə və təzahürlərin, əşya və predmetlərin, habelə proseslərin mahiyyətinə nüfuz etməyə, onların qanunauyğunluqlarını aşkara çıxarıb öyrənməyə, öz tələbatlarına uyğun olaraq ətraf gerçəkliyi dəyişmək üçün bu qanunauyğunluqlardan faydalanmağa imkan verir,

Fəaliyyət, başlıca olaraq, şəxsiyyətin, fədin davranış, hərəkət və əməllərində öz ifadəsini tapır. Şəxsiyyətin fəaliyyətini heyvan fəallığından fərqləndirən başlıca şərt isə, insan fəaliyyətinin yaradıcı xarakterdə olmasıdır. Şəxsiyyətin fəaliyyəti ilə yaradılan fəaliyyət məhsullarını digər nəsillər davam etdirir və mədəni sərvət kimi hifz olunur.

Beləliklə, fəaliyyət şagirdin dərk olunmuş məqsədi ilə tənzim edilən daxili (psixi) və xarici (fiziki) fəallığı kimi başa düşülməlidir.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə "fəaliyyət" sözünə belə aydınlıq gətirilir: "Fəaliyyət: 1. Hər hansı bir sahədə iş, çalışma; fəallıq göstərmə; aktivlik. Pedaqoji fəaliyyət. İctimai fəaliyyət"; 2. İş, işləmə" (**2**, 178).

Prof. Ə.S. Bayramov və prof. Ə.Ə. Əlizadənin qənaətincə, "Fəaliyyət dedikdə, insanın fəallığının özünəməxsus forması nəzərdə tutulur. Fəaliyyət sözü elə fəal sözündən əmələ gəlmişdir... Fəaliyyət genetik cəhətdən əvvəlcə praktik fəaliyyət kimi formalaşmışdır, onun əsasında isə tədricən nəzəri fəaliyyət təşəkkül etmişdir" (3, 37-38).

"Fəallıq" anlayışı ilə bağlı nə demək olar? "Azərbaycan dilinin izahlı lüğəti"ndə deyilir: "Fəal – 1. işlək, çalışqan, işcil, fəaliyyətli, daim fəaliyyət göstərən, çox iş görən, çox işləyən"; 2. Hər hansı bir kollektivin və s.-nin ən çalışqan, işcil, fəaliyyətli üzvü (2, 178); "Fəallıq – işcillik, çalışqanlıq, fəaliyyət, aktivlik. Fəallıq göstərmək (2, 179) deməkdir.

Fəallıq latınca *activus* sözündən götürülmüşdür, fəal, işgüzar, işcil, çalşqan, fəaliyyətli mənalarında işlənir.

Fəallıq şəxsiyyətin hər hansı bir fəaliyyətini əhatə edən bir anlayışdır. Psixologiya elmində fəallıq insanın tələbatlarına və maraqlarına əsaslanan keyfiyyət və fəaliyyətə daxili hazırlıq kimi başa düşülür. Fəallıq təlim və tərbiyə vəzifələrinin həyata keçirilməsinə yönələn əqli, mənəvi, iradi və fiziki qüvvələrinin səfərbərliyə alınması kimi anlaşıla bilər. Fəallığın tələbatlarla sıx bağlılığı vardır. Tələbatlar fəallığın mənbəyinə çevrilir.

"Fəallıq" və "fəaliyyət" anlayışları bir-birilə söz surətdə bağlıdır. Lakin həm də müstəqil anlayışlardır. S.L. Rubinşteynə görə, hər hansı psixi proses qavrayış, təfəkkür və s. məzmun və proses baxımından vahid olub, aktivdir. Belə ki, "Proses kimi təfəkkür –fəallıqdır. Sözün həqiqi mənasında fəaliyyət - əşyavi fəaliyyətdir, praktikadır".

M.Ə. Həmzəyev "Pedaqoji psixologiya" dərs vəsaitində fəallıq anlayışına münasibət bildirmişdir. Professora görə. "Şəxsiyyətin fəallığı onun inteqral xassəsidir. Bu, həm şəxsiyyətin ideyalılığında, həm əxlaqi saflığında, həm də mənəvi zənginliyində, xüsusilə iradi inkişaf səviyyəsində ifadə olunur. Digər tərəfdən, fəallığın inkişafı şəxsiyyətin əqli və fiziki, əxlaqi və siyasi, estetik və politexnik inkişafı üçün daxili zəmin yaradır. Fəal adam daim məhsuldar olur. Tarixi məhz bu cür adamlar yaradırlar. Ən əhəmiyyətli fəallıq şəxsiyyətin əmək və ictimai fəallığıdır" (4, 49).

Fəallığın bir neçə növü vardır. Onları qeyd edək: sosial fəallıq, ictimai-siyasi fəallıq, əmək fəallığı, idrak fəallığı və s.

İdrak fəallığı dedikdə, nə başa düşülməlidir?

İdrak fəallığı pedaqoji ədəbiyyatda geniş istifadə olunan bir anlayışdır. Fəal idrak fəallığında şagirdlər təkcə bilik, bacarıq və vərdişlərə yiyələnmir, eyni zamanda idrak prosesinə və idrakın nəticələrinə onlarda emosional-qiymətləndirici münasibət yaranır.

L.P. Aristova "İdrak fəallığı" anlayışına düzgün tərif vermişdir. O, gerçəkliyin dərk olunmasına subyektin ətrafdakı hadisələrə və predmetlərə dəyişdirici münasibətinin təzahürü kimi yanaşır. Təhsilalanda belə münasibət olmadıqda fəaliyyət aktiv olmur.

T.İ. Şamovanın qənaətincə, fəallıq prinsipi təlimin bütün digər prinsiplərindən ötrü səviyyənin praktik olaraq bazisi və göstəricisi rolunu yerinə yetirir. T.İ. Şamova idrak fəallığını məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin maraqlarının istiqamətində və sabitliyində təzahür edən əsas şəxsiyyət keyfiyyəti kimi nəzərdən keçirir.

Hazırda idrak nəzəriyyəsinə əsaslanmadan şəxsiyyətin fəallığı problemini səmərəli şəkildə tədqiq etmək mümkün deyildir. Dünyanı dərk edən insan ətraf gerçəkliyə heç də sadəcə uyğunlaşmır, həm də ona fəal təsir edir. Başqa sözlə, şəxsiyyət, o cümlədən yuxarı sinif şagirdləri öz aktiv fəaliyyətləri prosesində ətraf gerçəkliyi dərk edirlər. İdrak - təfəkkür, təxəyyül, qavrayış, duyğu, təsəvvür, yaddaş kimi idrak proseslərini özündə birləşdirən insan fəaliyyətinin ən mürəkkəb növlərindən biridir.

**Problemin aktuallığı.** Yeni pedaqoji təfəkkür və təxəyyül şəraitində məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində idrak fəallığının inkişaf etdirilməsi zərurətə çevrilmişdir. Problemin aktuallığı ilk növbədə Ölkə Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gəlir.

**Problemin yeniliyi.** "Fəallıq" və "idrak fəallığı" anlayışları: mahiyyəti, oxşar və fərqli cəhətləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Yuxarı sinif şagirdlərində idrak fəallığının inkişaf etdirilməsi sahəsində İngilis dili müəllimlərinə praktik kömək göstərəcəkdir.





**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 25 oktyabr 2016-cı il
2. "Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə, 2-ci cild. Bakı: Şərq-Qərb, 2006.
3. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2006.
4. M.Ə. Həmzəyev. Pedaqoji psixologiya. Bakı: Maarif, 1993.


**Р. Ганиева**

**ПОНЯТИЯ «АКТИВНОСТЬ» И «ПОЗНАВАТЕЛЬНАЯ АКТИВНОСТЬ»: СУЩНОСТЬ, ЕДИНЫЕ И РАЗЛИЧНЫЕ АСПЕКТЫ**

**РЕЗЮМЕ**

Активизации учебной деятельности, формирование познавательной активности одна из важных проблем образования. Познавательная активность – сложное личностное качество. Она складывается под влиянием разнообразных – субъективных и объективных факторов.

Развитие познавательной деятельности предполагает усиление процесса познания.

**R. Ganiyeva**

**"ACTIVE" AND "COGNITIVE ACTIVITY": ESSENCE, ONE AND VARIOUS ASPECTS**

**SUMMARY**

Boosting training activities, the formation of the cognitive activity of one of the important problems of education. Cognitive activity - a complex of personal qualities. It is shaped by a variety of - subjective and objective factors. Development of cognitive activity is intended to increase the knowledge of the process.

**Redaksiyaya daxil olub: 08.07.2016**